# LƏNKƏRAN, ELŞAD SƏFƏRLİ

## və "Qiymət" poeması haqqında düşüncələr

Lənkəranı görkəmli rus şairi Nikolay Tixonov «Cənub mirvarisi» adlandırmışdı. Bəlkə də, bu ifadə düşüncədə özünə yer tuta bilməzdi, əgər görkəmli yazıçı, jurnalist Sərdar Əliyev 80-ci illərdə Lənkəranda bölgə müxbiri olarkən «Cənub mirvarisi» kitabını yazmasaydı.

Sərdar Əliyev mənim qohumum idi. Ara-sıra görüşəndə mənə isti münasibət göstərirdi. Bir dəfə mənə dedi ki, gəl səni Lənkərana aparım. Deyəsən, bir pyesi tamaşaya qoyulacaqdı,,, Ancaq gedə bilmədim. Sonralar çox istəyirdim ki, Lənkəranı heç olmasa, bir dəfə görüm. Babam Əziz Zal oğlu 1942-ci ildə Lənkəranda vəfat edib, orada dəfn olunmuşdu. Bəlkə də bu səbəbdən, ya başqa hissin təsirilə Lənkərana, onun adamlarına, təbiətinə məndə bir can atımı yaranmışdı və bu hiss indi də ruhumda, varlığımda canlı olaraq yaşayır.

Lənkərana ilk səfərimdə qəlbimdə yaranmış istəkli duyğularıma bir az da rəvac gördüm. Və bu da «Lənkəran» şeirim ilə mənim mənəvi tərcümeyi-halıma öz əlavəsini etdi:

Gözlər üzə gülür, arzular çiçək,
Gör necə açılıb gül Lənkəranda.
Şeyda bülbül kimi könlüm həvəsdə,
Min nəğmə oxuyur dil Lənkəranda.

Şair, çabalama söz ümmanında,
Hikmətin yeri var sərraf yanında.
Tanrı qələm çəkib xoş məqamında,
Onunçün gözəldi, el Lənkəranda.

Təbiət gözəldi qışda, baharda,
Allah qoymaz səni çətində, darda.
Cənnəti-Rizvanın qapısı burda
Xələfli, istəsən yol Lənkəranda
Xələfli, istəsən qal Lənkəranda.

Lənkəran ədəbi mühiti çox zəngindir. Bu yerin, yurdun və bütövlükdə bölgənin yetirməsi olan ziyalılarla sadəcə tanışlıq ünsiyyətim yoxdur. Lap isti dostluq münasibətlərim var. Hüseynbala Mirələmov, İltifat Saleh, Şəddat Cəfərov, Yadulla Ağazadə, Ağamir Cavad, Balayar Sadiq, Elşad Səfərli, Sevda Əlibəyli... sadalasam uzun çəkər. Adını çəkə bilmədiyim qələm adamlarının da hər biri qəlbimdə ruhumun dilləşdiyi obrazlar kimi hər vaxt mənimlədir.

* * *

Göründüyü kimi, bu sırada Şəddat Cəfərov da var. O, keçmiş postsovet məkanında tanınmış naşir və Azərbaycanda ilk poliqrafçı alimdir. Azərbaycan Jurnalist və Yazıçılar Birliyinin üzvüdür. Bir sözlə, onunla biz həm naşirlik baxımından, həm də yaradıcılıq tərəfdən həmkarıq. Görünür, sözümüzün, söhbətimizin tutması həm əməli fəaliyyətimizlə, həm də mənəvi-estetik görüşlərimizlə çox bağlıdır.

Onun ziyalılığı əhatə edən mühitə humanist münasibəti, qayğıkeşliyi hələ ötən əsrin 80-ci illərindən üzü bəri yaradıcı ziyalıların diqqətini cəlb edib. Jurnalistlər və publisistlər ardıcıl olaraq onun həm naşirlik fəaliyyətini, həm də ədəbi yaradıcılıq yolunu işıqlandırıblar. Nasirlər sənədli hekayələr, romanlar yazıb, şairlər poetik obrazını poeziyaya gətirib... və beləliklə, biz müasirimiz olan görkəmli bir ziyalının özünü təkcə həyatdan tanımamışıq. Onu həm də ədəbi düşüncədə görmüşük, qavramışıq...

Elşad Səfərli ədəbiyyat məsələlərini ardıcıl tədqiq edən alim olsa da, o, həm də istedadlı, ilhamlı bir şairdir. Həm özünün yaratdığı sonetləri, həm də sonet haqqında tədqiqatları çox maraqlıdır. Yəqin ki, yaradıcılığının dəyərli məzmununa görə, tutarlı mahiyyətinə görə həmişə ədəbi tənqidin diqqətində olub. Ancaq burada onun yalnız bir əsəri haqqında düşüncələrimi sözə gətirmək niyyətim var. Bu da təsadüfi deyil. Onun ədəbi mühitin maraqla qarşıladığı «Qiymət» poemasıdır.

«Qiymət» poemasını Elşad Səfərli ötən əsrin 90-cı illərinin ortalarında (1994-1995) qələmə alıb. O zaman hadisələrin elə qarışıq dövrü idi ki, siyasət ən təmiz qanlı ziyalıları belə az qala çaşdırmaq həddinə gəlmişdi. Görünür, əqidəsində bütövlük, varlığında saflıq olan insanlar ən qarışıq zamanda belə ləkələnmədən, aydan arı, sudan duru keçə bilirlər. Belə ziyalılardan biri də Ş.Cəfərov idi və o zaman onun hələ 60 yaşını tamamlamağa beş il qalırdı. Ancaq əlli beş illik ömrünün hər bir mərhələsində ağır zamanlar yaşamış, həyatın gətirdiyi ən sərt dolaylara belə mənəvi mühitinin təpəri ilə davam gətirmiş, sınmamış, ölkənin bütövlüyünə, vətənin toxunulmazlığına bütün imanı ilə sadiq qalmışdı. Doğrudur, çirkab içərisində olanlar öz bataqlıqlarına onu da çəkmək istəsələr də heç nəyə nail olmamışlar.

Elşad Səfərlinin «Qiymət» poemasında bir nəslin faciəsi tarixi aspektdə poetik sözə çevrilir. Bu günün (yəni 90-cı illərin əvvəllərinin) gözü ilə baxır, elə əsərini də bu günün sözü ilə başlayır... və çox ustalıqla tarixə üz tutur. Tərənnüm elədiyi obrazın hansı mühitdən gəldiyini, hansı kök üstündə cücərib bitdiyini və zamanın ədəbi qəhrəman üçün ilkin çağlarında necə sərt sınaqlarla insan iradəsinə nüfuz etməsini real həyat hadisələri fonunda göstərir.

Şəddat müəllim naşir kimi kifayət qədər tanınmışdı. Rəhbər vəzifədə işləyirdi. Ancaq görünür, bədxahlar üçün bütün varlığınla çalışmaq heç bir tələbi ödəmir. Bədxahların öz ölçüləri, öz meyarları var. Elə bu səbəbdən də onu öz işindən uzaqlaşdırır, onu sevən, onunla işləməkdən fərəh duyan insanlardan ayırırlar. Hər halda əsərin «Proloq»unda bu məsələlər öz əksini tapır. Qəflətən işdən çıxarılmaq onu sarsıtmır: «Çalışıb özünü tez ələ aldı, Bürüzə vermədi əsəbini də. Haqsızlıq görəndə - öyrəncəliydi, Gizlədə bilirdi qəzəbini də». Burada haqsızlıqdan, aldığı mənəvi zərbədən sarsılmamaq üçün özünü ələ ala bilən, gücünü hifz edən ətraf mühitin qarşısında əzilməmək, alçalmamaq üçün iradəsini səfərbər edən şəxsiyyətin obrazı görünür.

O ki öz işinin bilicisiydi,
Bəli, bu sahədə ilk alim idi.
Hamı bələd ikən səriştəsinə,
Ona bəs badalaq vuran kim idi?
Hansı işi ona tapşırsaydılar,
Dərhal öhdəsindən gələn idi o.
Alim bacarığı, təcrübəsiylə,
Çünki öz işini bilən idi o.

Doğrudur, müəllif onun qarşılaşdığı haqsızlıq durumunda kimliyini diqqətə çəkir. Göstərir ki, ruhən, mənən sağlam olan, öz işini bilən, insanların gözündə bir şəxsiyyət kimi örnək olan kimsə gərək belə bir duruma düşməsin.

Beləcə, haqsızlıq qarşısında mərdanə dayana bilən insanın təbiəti kitab-kitab vərəqlənir:

Azmı görmüşdü o, haqsızlıqları?
Görünür, bunu da görməliydi o.
Bu da bir növbəti zərbəydi, bəli,
Buna da birtəhər dözməliydi o.

Haqq yerin tapacaq, düşünürdü o,
Bilirdi işində nöqsanı yoxdu.
Onun əleyhinə danışar yalnız,
Kimin ki, mənliyi, vicdanı yoxdu.

Misralarda ədəbi obrazın mənəvi zənginliyi, həyata təmkinli münasibəti, ona qarşı olan haqsızlığa dözümü, hətta bu haqsızlığın yarada biləcəyi kinə, qərəzə qarşı, dura bilmək gücü görünür, həm də o da görünür ki, belə hallar onun həyatında az olmayıb. Müəllif bu məqamlara təsadüfi işarə vurmur. Bu işarələrlə öz oxucusunu çox kədərli bir tarixlə insanın dözümünü sınağa çəkən zamanla tanış etmək qəsdində olduğunu işarələyir.

Beləliklə, Elşad Səfərlinin «Qiymət» poemasının tarixə açılan qapısında dayandıq. O, sanki tərənnüm etdiyi obrazı yaddan çıxarır, oxucusunu tamam başqa bir mühitə aparır. O mühitə ki, anti-insani bir zamanı, dövrü oxucusunun gözləri qarşısına gətirir. Haqsızlıq at oynadır, qəddarğılığın qılıncı kəskindir, hər üzünə kəsib doğrayır.

Burada Elşad Səfərlinin «Qiymət» poemasını tarixə münasibət baxımından yüksək dəyər səviyyəsinə qaldıran bir obrazla tanış oluruq. Bu, Kəlbi obrazıdır. Bu obraz Azərbaycan ədəbiyyatında quduz it xarakterinin daşıyıcısıdır. Təsadüfi deyil ki, «Kəlbi» sözünün özü də itlik, it xasiyyətlik deməkdir. Şamo Arifin məşhur Kəlbi obrazı da, görünür, Elşad Səfərlinin öz «Kəlbi»sini yaradanda örnək olub.

Kəlbi sovet rejiminin obrazıdır. Sanki bütöv böyük repressiya maşınının başında duran tiranın kənddəki variantıdır. Onu kəndə sovet sədri təyin edirlər. Yəni kənddəki hakimiyyətin başçısı olur. Bununla da külli-ixtiyaratı öz əlinə cəmləyir. Onun üçün qanun aliliyi yoxdur, öz təbiəti var, öz təbiətindən gələn tələblər var. Və yalnız bu tələblərlə işləyir.

Kəlbi at oynadırdı,
Kəlbi meydan sürürdü.
İtaət etməyənə,
Kəlbi qan uddururdu.
Bu pislik kabusunun
Zülmü ərşə dirəndi.
Əlindən dad edirdi
Bütün Gərmətük kəndi.
Bu kəndə sovet sədri
O təyin ediləndə,
Elə bil şadlıq hissi
Çəkilmişdi bu kənddən.
Elə bil əl üzmüşdü
O, imamdan, o, dindən.
Bir adama yaxşılıq
Gəlməmişdi əlindən.

Sovet rejisinin, proletariat diktaturasının cismani və mənəvi terroru qarşısında qalan insanlar aciz idilər. Bəs bu terrorun hədəfi kim idi? Kimlər idi? Həm tarixdən bilirik, həm də nəslimizin yaddaşından gələn məlumatlarla zamanın necə bir qəddarlıq mexanizmi olduğundan xəbərdarıq.

Gərmətükkəndində hörmətli bir kişi var. Ağlının, bacarığının, zəhmətinin sayəsində özünə yaxşı bir ev-eşik qurur. Gün-güzəranına da söz yoxdur. Üstəlik də imkanı qədər kasıb-kusuba da əl tutur. Əlsiz-ayaqsızı da unutmur. Elə bu səbəbdən də camaatın ona hədsiz hörməti var. Rejimin təmsilçisi Kəlbi isə öz hakimiyyətini qorxu üstündə qurub. O, qətiyyən qəbul edə bilməz ki, bu kənddə kimsə ondan daha artıq hörmətli, daha artıq nüfuz sahibi olsun. Hər halda, insanlar qorxu altında yaşayır. Amma Hüseyn kişi kimsədən bir çəkinəcəyi olmadığı üçün başını dik tutub gəzir. İnsanlara qarşı onda bir doğmalıq var, atalıq münasibəti var. Bu iki zidd təbiət, şübhəsiz ki, tezliklə qarşılaşmalı idi. Bu qarşılaşmada kimin gücü nə qədərdir? Hüseyn kişi el içindəki hörmətinə güvənir, öz insanlığına sığınır. Qanunlara hörmətinə söykənir. Kəlbi isə rejimə arxalanır. Çünki rejim ona hədsiz ixtiyar verib. Hətta o ixtiyarı da verib ki, kimi istəyirsən böhtana sal, iblis toruna çək. Kimi istəyirsən bir kurat damğası vur və onu gedər-gəlməzə göndər. O vaxt isə gedər-gəlməzin ünvanı Sibir idi.

«Kəlbi yaxşı bilirdi,
Onu fikrindən etmək
Əzmi olmaz bir kəsdə.
Vaxt gələr ki, Hüseynin
Mülkünün, ocağının
Daşı qalmaz daş üstə.
İxtiyar onda idi,
Hər əncam onda idi.
Əli möhür görəndən
Sərəncam onda idi.
Zaman elə zamandı,
Təzə quruluş yaman
Varlıları əzirdi,
Adını kulak qoyub
Sürgünə göndərirdi.

Hərdən belə bir söhbət çox eşidilir. Repressiyalar haqqında nə qədər yazmaq olar? Lap hətta repressiyalarda rejimi sığortalamaq, günahı ayrı-ayrı kəlbilərin üstünə atmaq meyili də görünür. Amma Elşad Səfərlinin əsəri reallığı o qədər səmimi, o qədər yerli-yataqlı, hətta psixoloji dərinliklərinə qədər verə bilir ki, bu da oxucuda təkbəşər ideyalara güvənən quruluşa gələcək zamanlarda da bəraət olmayacağına inam yaradır. Kəlbi təmsil elədiyi quruluşun tələbinə uyğun olaraq bir bəhanə ustası kimi öz işini yaxşı bilir. Və həm də rejimin bəhanə zəncirini bir iblis toru kimi insanların taleyinə çevirir:

Belə bəhanəni də
Hökumət verdi ona.
Hüseyni kulak kimi
Bu kənddən sürgün etmək
Fikri gəldi ağlına.
Barmağını dişlədi
Məqam yaxşı məqamdı.
Gördü qanında coşan
Paxıllıq, intiqamdı.

Nəhayət, zaman gəlir. Kəlbi daha kənd içində Hüseyn kişini görmək istəmir. Üçlüyü başına yığıb qərar verir. Hüseyn kişi kulakdır, o, Sibirə sürgün olunmalıdır. Yaşı səksəni ötmüş qocanı öz evində qandallayır və hökmü icra üçün həyətə çıxarırlar. Bu vaxt evin, ailənin başçısını, atasını qolu qandallı görən, anasının şivənini eşidən Muğdat qabağa yeriyir, atasının qoca olduğunu, Sibir sürgününə davam gətirməyəcəyini izah edir.

Beləliklə, gələnlər humanistlik göstərir. Hüseynin qandalları açılır, oğlu Muğdatın qollarına vurulur. Əslində, bu, elə Kəlbinini öz planı idi. Əvvəlcə Muğdatı aradan götürmək, kənddə özünə təhlükə törədə biləcək qüvvəni məhv etmək, sonra başqa işlərini daha rahat görmək...

Bütün bunlar şəddadın gözü qarşısında baş verirdi. Onda hələ iki yaşı vardı. Baxmayaraq ki, bütün bunları görürdü, ancaq heç nəyi hələ bilməzdi. Böyük həqiqətlər ona gələcəkdə aydın olacaqdı. Bunun üçün zaman, vaxt ötməli idi.

*(Davamı var)*